"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 902:911**

**ELMAR BAXŞƏLİYEV**
AMEA Naxçıvan Bölməsi
elmarbaxsaliyev91@gmail.com

# NAXÇIVANIN DƏMİR DÖVRÜ ABİDƏLƏRİ

*E.ə. IX-VI əsrlərə aid Dəmir dövrü abidələrinin tədqiqi Naxçıvan tarixinin müəyyən məsələlərinə aydınlıq gətirməyə imkan verir. Bu dövrdə Naxçıvanın qonşuluğunda, Yaxın Şərqdə qüdrətli dövlətlər formalaşmışdı. Belə dövlətlərdən biri olan Urartu dövləti Cənubi Qafqaz xalqlarına qarşı işğalçı siyasət yürüdür, vaxtaşırı hərbi səfərlər təşkil edirdi. Xarici müdaxiləçilərə qarşı mübarizə aparmaq üçün Naxçıvanda yaşayan qədim tayfalar güclü müdafiə istehkamları inşa etmişdilər. Bunlar arasında Oğlanqala yaşayış yeri güclü müdafiə sistemi ilə xüsusilə diqqəti cəlb edirdi. Naxçıvanın Dəmir dövrü abidələrinin tədqiqi göstərir ki, güclü müdafiə istehkamları sayəsində Naxçıvan əhalisi Etiuni və Skiflərlə ittifaqa girərək Urartu dövlətinə qarşı mübarizə aparmış və Naxçıvan ərazisi öz müstəqilliyini qoruyaraq Urartu dövlətinin tərkibinə daxil olmamışdır.*

**Açar sözlər:** *Naxçıvan, Urartu dövləti, Etiuni tayfaları, skiflər, Yurdçu sərdabəsi.*

E.ə. IX-VI əsrlərə aid Dəmir dövrü abidələrinin tədqiqi Naxçıvan tarixinin müəyyən məsələlərinə aydınlıq gətirməyə imkan verir. Bu dövrdə Naxçıvanın qonşuluğunda, Yaxın Şərqdə qüdrətli dövlətlər formalaşmışdı. Belə dövlətlərdən biri olan Urartu dövləti Cənubi Qafqaz xalqlarına qarşı işğalçı siyasət yürüdür, vaxtaşırı hərbi səfərlər təşkil edirdi. Xarici müdaxiləçilərə qarşı mübarizə aparmaq üçün Naxçıvanda yaşayan qədim tayfalar güclü müdafiə istehkamları inşa etmişdilər. Bunlar arasında Oğlanqala yaşayış yeri güclü müdafiə sistemi ilə xüsusilə diqqəti cəlb edirdi.

Oğlanqala yaşayış yeri Şərur rayonunun Oğlanqala kəndi yaxınlığında yerləşir. Qala Kiçik Qafqaz dağlarının Şərur düzənliyinə yenən ətəklərində, sıldırım qayalar üzərində salınmışdı. Oğlanqala və onunla üzbəüz yerləşən Qızqala haqqında xalq arasında müxtəlif rəvayətlər var idi. Rəvayətlərdə bu qalaların yerli hökmdarlara məxsus olduğu da qeyd edilmişdi.

XX əsrin 20-30-cu illərindən başlayaraq bu qalanın tarixi tədqiqatçıların diqqətini cəlb etmiş (7, c. 249-264), Azərbaycan arxeoloqlarından Ə.K.Ələkbərov (8, s. 54), V.H.Əliyev (6, s. 43), memar D.A.Axundov (9, s. 189) bu qalada araşdırmalar aparmış müəyyən fikirlər söyləmişlər. O dövrdə Sovet tarixşünaslığının ənənələrinə uyğun olaraq bəzi tədqiqatçılar (7, s. 254) Naxçıvanın urartular tərəfindən işğal olunduğunu söyləsələr də arxeoloji araşdırmalar bunu təsdiq etməmişdir. 1927-ci ildə mixi yazıların məşhur araştırıcı-larından

**Məqalə tarixçəsi:**
Göndərilib: 18.02.2019, qəbul edilib: 01.03.2019

olan İ.İ.Meşşaninov Naxçıvanda mixi yazılar axtarsa da tapa bilməmişdi. 1988-1989-cu illərdə V.B.Baxşəliyev Oğlanqalada 320 kv.m sahədə arxeoloji qazıntı aparmış, Dəmir dövrünə aid arxitektura qalıqları və keramika məmulatı aşkar olunmuşdur. Tədqiqatçı Oğlanqalada aşkar olunan keramika məmulatının özünəməxsus xüsusiyyətləri ilə fərqləndiyini qeyd etmiş, Oğlanqalanın müdafiə sisteminin Urartu qalalarından fərqli olduğunu söyləmişdir. O, Oğlanqaladakı tikinti qalıqlarının həmçinin yaşayış yerinin mərkəzində yerləşən sarayın yerli hökmdarlara məxsus olduğunu qeyd etmişdir (10, c. 106-120).

2008-2011 -ci illərdə Oğlanqalada birləşmiş Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası tərəfindən geniş araşdırmalar aparılmışdır (14, p. 321-362 ). Arxeoloji araşdırmalar Cənubi Qafqazın ən möhtəşəm müdafiə qalası olan Oğlanqalanın sirlərini açmağa imkan vermişdir .




Şəkil 1. Oğlanqala sitadelinin və şimal divarın planı (Robert Bryant ABŞ).

Arxeoloji qazıntılar nəticəsində Oğlanqalanın mərkəzi hissəsində Orta Dəmir dövrünə (e.ə. IX-VI əsrlər) aid saray binasının qalıqları aşkar olunmuşdur. Tədqiqatın gedişində iri daşlardan hörülmüş qədim sarayın ümumi planını müəyyən etmək mümkün olmuşdur. Məlum olmuşdur ki, qalanın mərkəzi hissəsi ikiqat müdafiə divarı ilə əhatə olunmuşdur. Bu divarın eni 1,8-2-5 m arasında idi. Divarlar iri daş bloкlardan inşa edilmişdi. Müdafiə divarlarının bəzi qismlərində mərkəzi hissəsi qabartmalı olan yonulmuş iri daş bloklar vardır. Tədqiqatçıların fikrinə görə, bu tip tikinti texnikası e.ə. VII əsr üçün xarakterik olmuşdur. Narınqalanın müdafiəsini möhkəmləndirmək üçün əlavə divarlardan da istifadə olunmuşdur. Müdafiə divarlarının özünəməxsus xüsusiyyətləri ilə Oğlanqala Cənubi Qafqazın digər qalalarından tamamilə fərqlənir. 1988-1989

və 2008-2011-ci illərdə Oğlanqala sitadelinin mərkəzi hissəsində yerləşən sütunlu salonun əsas hissəsi aşkar olunmuşdur. Onun ölçüləri 33 x 34 m, yaxud 1122 $m^2$ olmuşdur (Şəkil 1). Radiokarbon analizlər göstərir ki, sütunlu salon və Qalanın əsas müdafiə divarları təqribən e.ə. 800-cü ildə inşa olunmuşdur (14, p. 321-362).




Şəkil 2. Yurdçu sərdabəsinin planı.

E.ə. VIII əsr Urartu dövlətinin yüksəlişi və gücləndiyi dövrdür. Bu dövrdə Urartular Ararat vadisində üç böyük qala-şəhər inşa etmişdilər. Naxçıvanın qonşuluğunda möhkəmlənən bu dövlət Gürcüstana, Azərbaycanın qərb torpaqlarına, o cümlədən Göyçə hövzəsinə basqınlar etmişdir. Urartu kralı Sardurinin kitabəsində xatırlanan Kuha-Albani, ya da Gu-Albani (Qu-Albani) ölkəsinin Azərbaycana aid olduğu heç bir şübhə doğurmur. Menuanın oğlu Argiştinin İrəvan yaxınlığındakı Elyar kitabəsində xatırlanan Uluani ölkəsinin Antik dövrdə Azərbaycan ərazisində yerləşən Albaniya ölkəsinin adı olduğu düşünülməkdədir (11, c. 38). Kuha-Albani ölkəsinin ayrıca xatırlanması tədqiqatçıların fikrinə görə bu ölkənin Etiuni birliyinə daxil olmadığını təsdiq edir (11, c. 38). Gu-Albani (Qu-Albani) ölkəsi Melikişvili tərəfindən Göyçə gölü yaxınında, Dyakonov tərəfindən isə Arpadan Göyçə kəndinə gedən yol üzərində lokalizə edilmişdir (13, p. 68).

Arxeoloji qazıntıların nəticələri göstərir ki, bu dövrdə Oğlanqala Urartulara qarşı mübarizə aparan şəhər-dövlətin paytaxtı olmuşdur. Naxçıvanda İlandağda Urartu kökmdarları İşpuini və Menuanın adını xatırlayan kitabə onların e.ə. 820 və 810-cu illərdə Naxçıvana hərbi hücumlarından bəhs edir. Lakin yerli tayfaların təzyiqi onları tezliklə Naxçıvan ərazisini tərk etməyə və Arazın cənubuna, indiki İran ərazisinə getməyə məcbur edir.

Urartuların Naxçıvanı işğal edə bilməməsinin səbəbi burada güclü tayfa birliklərinin məskunlaşması idi. Kəngərli rayonunun Yurdçu kəndində aşkar

olunan sərdabə bu tayfaların rəhbərlərinə aid olmuşdur (Şəkil 2). Sərdabədən aşkar olunan maddi-mədəniyyət nümunələri e.ə. VIII-VII əsrlərə aid edilmişdir (Şəkil 3). Qəbir avadanlığı içərisində idxal mallarının mövcudluğu məzarın əsilzadə insanlara məxsus olduğunu göstərir. Tayfa başçısına aid qəbir abidəsi Kolanı nekropolunda da aşkar olunmuşdur. Naxçıvanın yaxınlığında aşkar olunan Urartu mixi yazıları bu tayfaların Etiunilər olduğunu təsdiq edir.



Şəkil 3. Yurdçu sərdabəsinin qəbir avadanlığı.

Etiuni ölkəsinin adı Urartuların şimal bölgələrə hücumları zamanı tez-tez xatırlanmışdır. Etiunilər Urartu hökmdarları İşpuini, Menua I Argişti və II Sarduri dövrünə aid kitabələrdə xatırlanmışdır. Etiuni ölkəsində məskunlaşan tayfalar Cənubi Qafqazda urartulara müqavimət göstərən ən böyük tayfa birliyi olmuşdur. Etiuni konfederasiyasını yaradan İrekua (15, p. 40) adlı yerli qəbilələr haqqında Urartu kitabələrində yetərli məlumat yoxdur. Tədqiqatlar göstərir ki, Urartu hökmdarlarının səfərləri sırasında Naxçıvanda qala tipli şəhər-dövlət və mühim idari-siyasi mərkəzlər olmuşdur (14, p. 357). Oğlanqalada aparılan arxeoloji qazıntılar qədim dünyanın böyük imperatorluqları ilə mübarizə aparan bu dövlətin hansı qüvvələrə arxalandığını müəyyənləşdirməyə imkan vermişdir. Müəyyən olunmuşdur ki, e.ə. II minilliyin sonunda burada məskunlaşan Xocalı-Gədəbəy mədəniyyəti tayfaları xarici işğalçılara qarşı müvəffəqiyyətlə mübarizə aparmışdır. Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı arealın Uti qəbilələrinin yaşadığı, qədim mənbələrdə Otena adı ilə xatırlanan ərazi ilə üst-üstə düşməsi diqqətçəkicidir. Mənbələrin verdiyi məlumatlara əsaslanaraq bu qəbilələrin Araz çayı ilə Göyçə gölü arasında məskunlaşdığını söyləmək olar. Bəzi tədqiqatçılar Etiuni ölkəsinin Cənubi Qafqazda geniş bir

bölgənin (16, p. 51), daha doğrusu Sarıqamışdan Göyçə gölünün şimal-qərb sahillərinədək uzanan bir bölgənin adı olduğunu qəbul etmişlər (12, c. 70).

Urartu mənbələrində bu tayfalar Etiuni, Etiuhe adı ilə xatırlanmışdır. Van qalasında I Argiştinin qaya məzarının girişində yerləşən Xor-xor kitabəsində urartuların Etiuhe ölkəsinə təşkil edilən səfərindən bəhs edilmişdir. İşpuini, Menua və I Argiştinin (e.ə. 785-763) kitabələrində Etiuni ölkəsinin Cənubi Qafqazın kiçik dövlətlərindən biri olduğu qeyd edilmişdir (12, c. 70). I Argiştinin kitabəsində yazılır ki, “Tanrı Xaldi səfərə çıxdı, öz silahı ilə Etiuni ölkəsini məğlub etdi. Kixuni şəhrinin ölkəsini məğlub etdi, onları Argiştinin qarşısında məğlub etdi ... Xaldi qüdrətlidir. ... gölün sahilində yerləşən Kixuni şəhrinin ölkəsini zəbt etdim, Aliştu şəhərinə yetişdim, kişiləri, qadınları oradan götürdüm. ...” (1, s. 110). Kitabənin mətnindən göründüyü kimi, I Argiştinin səfərləri zamanında Etiuni ölkəsinin bir qismi Urartu tərəfindən ələ keçirilmişti (4, s. 69). Menuanın oğlu Argiştinin Sarıqamışda və Surp Sohakda aşkar olunan kitabəsində də Etiuni ölkəsinə təşkil edilən səfərdən bəhs edilmişdir (12, c. 70). Urartu kitabələrində Etiuni, ya da Etuihi olaraq xatırlanan qəbilələri tədqiqatçılar şimalda, Göyçə gölünün ətrafında yerləşdiyini söyləmişlər (13, p. 34). Amma qeyd etməliyik ki, bu qəbilələr Naxçıvanın qonşuluğunda yerləşən böyük bir tayfa birliyi olmuşdur. Menuanın oğlu Argiştinin İrəvanın 15 kilometrliyində aşkar olunan kitabəsində (12, c. 70) Etiuni öllkəsinə təşkil edilən səfərdən bəhs edilməsi də bu ölkənin Naxçıvan yaxınlığında olduğunu təsdiq edir. Digər Urartu kralı II Argiştinin (İÖ 714-680) Sisianda aşkar olunan kitabəsində deyilir: “Xaldinin əzəməti ilə [....] Etiuhi ölkəsinin kralı gəldi, ölkəsinin vergisini mənə verdi. Bəzı (?) şəhərlər duydu [....] yer, bəzi qonşular aribiri; burada talan etdim, kişiləri, qadınları götürdüm, şəhərləri yandırdım, qalaları yıxdım.” (1, s. 118). Kitabənin mətni, Göyçə gölü hövzəsində yaşayan Etiuni qəbilə birliyinin Naxçıvanın şimalında yerləşdiyinə işarə edir ve bu konfederasiyanın böyük bir ərazini əhatə etdiyini təsdiq edir. Kitabənin mətni Etiuni konfederasiyasına daxil olan qəbilələrin xərac verməklə işğaldan qurtardığını da göstərir. Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinə aid çox sayda nekropolun mövcudluğu Naxçıvanın bu konfederasiyaya daxil olduğunu göstərir.

Azərbaycanın qərbində yerləşən Uti ölkəsinin bölgələrindən biri Sakasena idi. Tədqiqatçılar Sakasenada skiflərin yaşadığını söyləmişlər (12, c. 244). Azərbaycanda öz dövlətlərini yaradan skiflər buradan Urartu və Assuriyaya basqınlar etmişdir (5, s. 41).

Naxçıvanın Dəmir dövrü abidələrinin tədqiqi Naxçıvan ərazisinin Urartu dövlətinin tərkibinə daxil olmadığını, Etiuni tayfa birliyi və skiflərlə ittifaq yaradaraq Urartu dövlətinə qarşı mübarizədə müstəqilliyini qoruduğunu təsdiq edir.

## ƏDƏBİYYAT

1. Qaşqay, S. Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə. Bakı: Təhsil, 2006, 92 s.
2. Ceylan, A., Günaşdı, Y. Erzurumun Eskiçağ Kaleleri. Erzurum: Atatürk Universiteti, 2018, 448 s.

3. Ceylan, A., Ceylan, N. Doğunun Sönmeyen Yıldızı Akçakale ve Çıldır araştırmaları. Erzurum: Atatürk Universiteti, 2018, 232 s.
4. Çilingiroğlu, A. Urartu Tarihi. Bornova, 1994, 156 s.
5. Ozan A. Urartu Krallığı'nın Kuzey Yayılımı: Nedenler ve Sonuçlar // Arkeoloji dergisi, cilt VIII, 2006, 2, s. 33-45
6. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
7. Алекперов А.К. Крашенная керамика Нахичеванского края и Ванское царство // Советская археология, 1937, № 4, с. 249-264.
8. Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана. Баку: Изд-во АН Азербайджанской ССР, 1960, 249 с.
9. Ахундов Д.А. Архитектура древнего и средневекового Азербайджана. Баку: Азернешр, 1986, 311 с.
10. Бахшалиев В.Б. Археологические раскопки на поселении Оглангала // Российская археология, 1994 № 4, с. 106-120.
11. Мещанинов И.И. Предположительные сведения о движении халдов в пределы Азербайджана // Известия Азербайджанского Археологического Комитета. II, Баку, 1926, с. 33-38.
12. Пиотровски, Б.Б. Ванское царство (Урарту). Москва: Издательство Восточной Литературы. 1959, 284 с.
13. Diakonoff I.M., Kashkai S.M. Geographical Names According to Urartian Texts // Repertoire Geographique des textes Cuneiformes, Band 9, Wiesbaden, 1981, p. 34-71.
14. Rıstvet, L., Gopnık H., Bakhshalıyev, V., Lau H., Ashurov, S., and Bryant, R On the Edge of Empire: 2008-2009 Excavations at Oğlanqala, Azerbaijan // American Journal of Archaeology, 2012, 116/ 2: 321-362 .
15. Salvini M. Some Historic-Geographical Problems Concerning Assyria and Urartu. Neo Assyrian Geography, Roma, 1995, p. 43-54.
16. Salvini M. The Historical Geography of the Sevan Region in the Urartian Period / The North-Eastern Frontier and Non-Urartians in the Sevan Lake Basin The Southern Shores, Rome, 2002, 37-61.

**РЕЗЮМЕ**

**ЭЛЬМАР БАХШАЛИЕВ**

**ПАМЯТНИКИ НАХЧЫВАНА ЭПОХИ ЖЕЛЕЗА**

Исследование памятников эпохи железа, относящиеся к IX-VI вв. до н. э. позволяет осветить некоторые проблемы истории Нахчывана. В этом периоде вблизи Нахчывана, в Ближнем Востоке формировались могучие государства. Одним из таких государств было государство Урарту, которое в отношении народов Южного Кавказа проводила, оккупационная политика и организовало военные походы. Древние поселенцы Нахчывана для борьбы против иноземных захватчиков строили устойчивые оборонительные сооружения. Среди этих сооружений крепость Огланкала своим привлекает внимание своим мощным оборонительным укреплением. Исследование памятников эпохи железа показывает, что поселенцы Нахчывана ввиду наличия таких оборонительных сооружений в союзе с

племенами этиуни и скифов сражались, против государства Урарту и территория Нахчывана не входила в состав государства Урарту.

**Ключевые слова:** Нахчыван, государство Урарту, этиуни, скифы, Юрдчинский склеп.

**SUMMARY**

**ELMAR BAKHSHALIYEV**

**IRON AGE MONUMENTS OF NAKHCHIVAN**

The research of monuments Iron Age, the IX-VI centuries BC allows interpretation some problems of the history Nakhchivan. In this period near Nakhchivan, in the Middle East were formed the mighty states. One of these states was the Urartian state which contrary to the people of South Caucasus was pursue the occupational policy and organized military campaigns. Ancient settlers of Nakhchivan for fight against overseas aggressors built steady defensive fortress. Among these fortresses Oglankala with the powerful defensive strengthening draws attention. The research of monuments of Iron Age shows that Nakhchivan's settlers in view of existence of such defensive fortress in the union tribes of Etiuni and Scythians battled against to Urartian state and Nakhchivan's territory was not part of Urartian state and was not subject to their authority.

**Keywords:** Nakhchivan, Urartian state, Etiuni, Scythians, Yurdçu tomb

*(Akademik Hacı Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*